**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

09.01.2019-cu il

## Biznes mühitinin əlverişliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində sahibkarlıq subyektlərinin elektrik təchizatı şəbəkələrinə qoşulması üzrə aparılmış islahatlarla bağlı İcra və Kommunikasiya Planı

| Sıra №-si | Görüləcək işlər | İcraçı qurumlar | İşçi qrupu üzrə məsul şəxslər | Hədəf qrupları (benifisiarlar) | Son icra müddəti |
|---|---|---|---|---|---|
| **1.** | **"Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 dekabr tarixli Fərmanının icrası sahəsində** | | | | |
| 1.1. | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27.04.2018-ci il tarixli 180 nömrəli Qərarına müvafiq dəyişikliklərin edilməsi | Nazirlər Kabineti<br>Energetika Nazirliyi | Pərviz Əliyev | | 11.01.2019 (layihənin təqdim edilməsi) |
| 1.2. | Qoşulma prosedurlarının daha da sadələşdirilməsini əks etdirən məlumatlandırıcı video çarxların hazırlanması və Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinə təqdim edilməsi | "Azərişıq" ASC | Elsevər Rüstəmli | Sahibkarlıq subyektləri | 21.01.2019 |
| 1.3. | Qanunvericilikdə edilmiş dəyişikliklər və mövcud prosedurlarla bağlı təqdimatın hazırlanması və Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinə təqdim edilməsi | "Azərişıq" ASC | Elsevər Rüstəmli | Azərbaycan Respublikası Prezidentinin 04.04.2017-ci il tarixli 1313 nömrəli Fərmanının 2-ci bəndi ilə yaradılmış Texniki Şuraya daxil olan və digər aidiyyəti dövlət qurumlarının nümayəndələri | 11.01.2019 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.4. | Elektrik təchizatı şəbəkəsinə (ETŞ-yə) qoşulma prosedurlarını (xərc və müddətlər daxil olmaqla) izah edən bukletin hazırlanması və Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinə təqdim edilməsi | “Azərişıq” ASC | Elsevər Rüstəmli | Sorğuda iştirakı ehtimal edilən sahibkarlıq subyektləri, konsaltinq şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları | 29.01.2019 |
| 1.5. | ETŞ-yə qoşulma sahəsində aparılmış sadələşdirmə işləri ilə bağlı hazırlanmış təqdimat materiallarının icraçı qurumların rəsmi internet səhifələri və digər informasiya resursları vasitəsi ilə yayımlanması | Energetika Nazirliyi, Vergilər Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, “Azərişıq” ASC | İşçi qrupun bütün üzvləri | ETŞ-yə qoşulma üzrə hüquqi və fiziki şəxslər, KİV, konsaltinq şirkətləri | Yanvar-fevral 2019 |
| **2.** | **Aidiyyəti qurumların müvafiq sahə üzrə əməkdaşları və bu sahəyə məsul şəxslərlə iş sahəsində** | | | | |
| 2.1. | Aidiyyəti dövlət qurumlarının nümayəndələri üçün treninqlərin təşkili (treninqlərin sonunda sorğunun keçirilməsi) | “Azərişıq” ASC | Elsevər Rüstəmli | Azərbaycan Respublikası Prezidentinin 04.04.2017-ci il tarixli 1313 nömrəli Fərmanının 2-ci bəndi ilə yaradılmış Texniki Şuraya daxil olan və digər aidiyyəti dövlət qurumlarının nümayəndələri | 15-16.01.2019 (2 gün) |
| 2.2. | “Doing Business 2019” hesabatında əks olunan prosedurların müəyyən edilməsinə əsas verən səbəblərin aradan qaldırılması üçün Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın aidiyyəti işçi qruplarının və müvafiq dövlət qurumlarının iştirakı ilə dəyirmi masanın keçirilməsi | Energetika Nazirliyi | Pərviz Əliyev | Bakı Şəhər İcra Hakimiyyəti; Dövlət Şəhərsalma və Arxitektura Komitəsi; Daxili İşlər Nazirliyi; Avtomobil Yolları Dövlət Agentliyi; Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi; “Azərişıq” ASC. | 18.01.2019 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.3. | Elektrik xətlərinin çəkilməsi üçün qurumlar arasında razılaşdırma prosedurunun Texniki Şura tərəfindən operativ təşkili məqsədilə (sahibkarlar cəlb edilmədən) treninqlərin təşkili | “Azərişıq” ASC | Elsevər Rüstəmli | Bakı Şəhər İcra Hakimiyyəti; Dövlət Şəhərsalma və Arxitektura Komitəsi; Avtomobil Yolları Dövlət Agentliyi. | 17.01.2019 |
| **3.** | **Sahibkarlıq subyektləri ilə iş sahəsində** | | | | |
| 3.1. | Vergilər Nazirliyi tərəfindən sahibkarların elektron kabinetinə məlumatların göndərilməsi | “Azərişıq” ASC, Vergilər Nazirliyi | Elsevər Rüstəmli | Sahibkarlıq subyektləri | 14.01.2019 |
| 3.2. | Hər ayın əvvəli ötən ay ETŞ-yə qoşulmuş sahibkarlar arasında seçmə üsulu ilə sorğunun keçirilməsi | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, “Azərişıq” ASC | Elçin İbrahimov Elsevər Rüstəmli | Sahibkarlıq subyektləri | 2019-cu ilin fevral və mart aylarının 5-dək |
| 3.3. | ETŞ-yə qoşulmanın yeni qaydaları haqqında sahibkarlıq subyektlərinə məlumatın verilməsi və bu sahədə onlara treninqlərin keçirilməsi | “Azərişıq” ASC, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi | Elsevər Rüstəmli Elçin İbrahimov | Sahibkarlıq subyektləri | 25.01.2019 31.01.2019 05.02.2019 |
| **4.** | **Aparıcı konsaltinq şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları ilə iş sahəsində** | | | | |
| 4.1. | ETŞ-yə qoşulmanın yeni qaydaları haqqında tanışlıq turlarının təşkil edilməsi | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, “Azərişıq” ASC, Enerji Məsələlərini Tənzimləmə Agentliyi | Samir Murquzov Elsevər Rüstəmli Pərviz Əliyev | Sorğuda iştirakı ehtimal edilən konsaltinq şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları | 25.01.2019 |
| 4.2. | ETŞ-yə qoşulmanın yeni qaydaları haqqında dəyirmi masanın keçirilməsi | Energetika Nazirliyi | Pərviz Əliyev | Sorğuda iştirakı ehtimal edilən konsaltinq şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları | 30.01.2019 |
| **5.** | **Aparıcı kütləvi informasiya vasitələri və digər media qurumları ilə iş sahəsində** | | | | |
| 5.1. | ETŞ-yə qoşulma prosedurları ilə bağlı brifinqlərin keçirilməsi | “Azərişıq” ASC, Enerji Məsələlərini Tənzimləmə Agentliyi | Elsevər Rüstəmli | Kütləvi informasiya vasitələri və digər media qurumlarının nümayəndələri | 2019-cu ilin fevral və mart aylarının 1-ci 10 günlüyü |

| | | | | | |
|---|---|---|---|---|---|
| 5.2. | Tanışlıq turlarının təşkil edilməsi | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, “Azərişıq” ASC, Enerji Məsələlərini Tənzimləmə Agentliyi | Samir Murquzov<br>Elsevər Rüstəmli<br>Pərviz Əliyev | Kütləvi informasiya vasitələri və digər media qurumlarının nümayəndələri | 15.02.2019 |
| 5.3. | Sahibkarlara ünvanlanmış televiziya verilişlərində (ETŞ-yə) qoşulma ilə bağlı məlumatların verilməsi | “Azərişıq” ASC, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Enerji Məsələlərini Tənzimləmə Agentliyi | Elsevər Rüstəmli<br>Elçin İbrahimov<br>Pərviz Əliyev | Sahibkarlıq subyektləri | Ayda 1 dəfə |
| 5.4. | Video çarxın və televiziya verilişlərinin aidiyyəti orqanların saytlarında yerləşdirilməsi və sosial şəbəkələrdə yayılması | “Azərişıq” ASC, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Enerji Məsələlərini Tənzimləmə Agentliyi | Elsevər Rüstəmli<br>Elçin İbrahimov<br>Pərviz Əliyev | Sahibkarlıq subyektləri | Video çarx – 23.01.2019<br><br>Televiziya verilişlərinin yayımlandığı tarixdən sonrakı gün |